

# “Mən ədəbiyyatı çox sevən adamam...”

## II yazı

**Vilayət QULİYEV,**
**professor**

Faktlara müraciət edək. 1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Nizami Gəncəvinin 840 illiyi qeyd olunmuş, şairin külliyyatı, habelə müxtəlif dillərdə onlarla kitablar nəşr edilmiş, “Nizami” filmi çəkilmişdi. Nizami irsinin öyrənilməsi, təbliği istiqamətindəki işləri arasıkəsilməz proses sayan Heydər Əliyev “yuvarlaq” yubiley tarixinin (ən azı 850 illiyin) gəlib çatmasını gözləməyə lüzum görməmişdi. Müstəqil Azərbaycanın Prezidenti kimi uğurlu təşəbbüslərindən biri Rusiya mədəniyyətinin beşiyində – Sankt Peterburq şəhərində Nizami Gəncəvinin möhtəşəm abidəsinin ucaldılması olmuşdu. Bu gün fars-erməni alyansının cidd-cəhdlə “Gəncə dahisini” Azərbaycan ədəbiyyatı, mədəniyyəti arealından qoparmağa çalışdıqlarını görəndə zamanında atılmış addımların vacibliyinə və uzaqgörənliyinə heyrətlənməyə bilmirsən. Çünki ədəbiyyat Heydər Əliyevin nəzərində yalnız mənəvi tərbiyə vasitəsi deyildi, həm də xalqın tarixi idi, siyasi və ideoloji mübarizə vasitəsi idi. Nəsiminin 600 illiyinin UNESCO səviyyəsində qeyd olunması, Bakıda şairə heykəl qoyulması ana dilimizə və əqidəsi yolunda ölümə getməkdən çəkinməyən böyük insan və sənətkar şəxsiyyətinə ehtiramın nümunəsi idi. Vaqifin Şuşada məqbərəsinin və abidəsinin ucaldılması, onun təkcə şair deyil, həm də dövlət xadimi kimi geniş təbliğ edilməsi də sözə, sənətə dərin hörmət duyğusu ilə yanaşı, həm də (və daha çox!) tarixi-ideoloji məna yükü daşıyırdı. Qarabağın tarixi mənsubluğu ilə bağlı saxtakar erməni millətçilərinə göndərilən qabaqlayıcı mesaj idi. Burada kimin dövlət qurduğunu, kimin torpaq və iqtidar sahibi olduğunu vurğulayan simvol idi. Ona görə də təsadüfi deyil ki, ermənilər Şuşanı işğal edəndə ilk vandalizm aktını bu abidəyə qarşı həyata keçirmişdilər. Prezident Heydər Əliyevin 2001-ci ildə Strasburqda quldur rejimin başçısı Koçaryanı məqbərənin dağıdılmasına görə necə sərt şəkildə ittiham etməsi indi də qulaqlarımda səslənir. Yaxud Nəriman Nərimanovun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı ardıcıl, məqsədyönlü fəaliyyəti xatırlayaq. Nərimanov tək maarifçi-yazıçı kimi yox, həm də bolşevizm özbaşınalığının tüğyan etdiyi 1920-ci illərin başlanğıcında Azərbaycanın maraqları keşiyində dayanan milli düşüncəli siyasətçi kimi diqqət mərkəzinə çəkilmişdi. Bir daha təkrar edirəm: belə çətin işlərin öhdəsindən yalnız Heydər Əliyev kimi milli mədəniyyətə, ədəbiyyat və sənət korifeylərinə böyük önəm verən bir lider gələ bilərdi.

Bu işləri görərkən Heydər Əliyev səmimi şəkildə inanırdı ki, “ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də hesab edirəm, həmişə belə düşünəcəyəm. Hesab edirəm bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə təsiri çox böyükdür”.

Ona görə də yaradıcı təşkilatlara xüsusi diqqətlə yanaşırdı. Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə milli-mədəni fikrin Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Mikayıl Hüseynov kimi görkəmli nümayəndələri keçmiş SSRİ-də ən yüksək mükafata – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər. Məşhur filmimizin epizodik, amma yaddaqalan qəhrəmanı kimi indi bu fakta da “Eh, nə olsun?” – deyə yanaşanlar tapıla bilər. Amma nəzərə alaq ki, Rusiya Federasiyasını çıxmaq şərti ilə heç bir müttəfiq respublika sənət adamlarına münasibətdə belə “yüksək göstəriciyə” nail ola bilməmişdi. Aydın məsələdir ki, Heydər Əliyevin təşəbbüsü, təkidi, sovet rəhbərliyi yanında yüksək nüfuzu olmasaydı, adları çəkilən ədəbiyyat və mədəniyyət xadimlərimizin zəhməti layiqincə qiymətləndirilməyəcəkdi.

Təbii ki, belə yüksək reqaliyalara malik olan yaradıcı insanlardan cəmiyyətin tələb və istəyi də böyük idi. Heydər Əliyev onlardan təkcə ədəbiyyat və sənət tariximizi zənginləşdirən əsərlər deyil, həm də Azərbaycan dövləti naminə, milli maraqlarımızın müdafiəsi, dilimizin və mədəniyyətimizin dünya miqyasında təbliği naminə qətiyyətli mövqe, yorulmaz fəaliyyət gözləyirdi. (Yuxarıda xatırlatdığım monoloq da məhz bu istək və yanğıdan irəli gəlmişdi) Və sovet ideologiyasının bütün qadağalarına baxmayaraq belə fəaliyyətin ibrətamiz nümunələrini ilk növbədə respublika rəhbərinin özü göstərirdi. Böyük filosof-şairimiz Hüseyn Cavidin cənazəsinin uzaq Maqadandan gətirilib doğulduğu Naxçıvan torpağında ehtiramla dəfn olunması tək Azərbaycan mədəniyyətinə əvəzsiz xidmət və qədirşünaslıq aktı deyildi. Həm də dahi sənətkarı saxta ittihamlarla məhv edən imperiyaya sərt şapalaq idi. Gizli deyil ki, keçmiş Sovet İttifaqının digər xalqlarının “böyük terrorun” qurbanı olan tanınmış ədəbiyyat və mədəniyyət xadimləri də tarixi vətənlərindən uzaqlarda, adsız məzarlarda uyuyurlar. Amma bildiyim qədər Qorbaçovun daha çox teatral səciyyə daşıyan yenidənqurma və aşkarlıq dövrünə qədər belə cəsarəli addım yalnız Azərbaycanda atılmışdı. Bu cəsarətin sahibi isə özünə və xalqına güvənən Heydər Əliyev idi.

İstər sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə, istərsə də müstəqillik illərində birinci katib-Prezident, demək olar ki, bütün üzdə olan şairləri, yazıçıları, rəssam və bəstəkarları, memar və kino xadimlərini, tətbiqi sənət ustalarını şəxsən tanıyırdı. Yaradıcılıqları ilə yaxından tanış idi. Bəziləri ilə dostluq əlaqələri saxlayırdı. Həm də təkcə Azərbaycanda deyil, keçmiş Sovetlər İttifaqı miqyasında! Soydaşlarına gəldikdə isə həm Bakıda, həm də Moskvada çalışdığı illərdə qapısı bu adamların üzünə həmişə açıq idi. Onlarla görüşlərdə ictimai-siyasi və yaradıcılıq problemləri ilə bir sırada şəxsi həyat məsələlərini, məişət çətinliklərini də eyni dərəcədə səmimiyyətlə müzakirə edir, köməyinə ehtiyac duyulan yerdə heç vaxt yardımını əsirgəmirdi.

Sovet İttifaqı dağılmamışdan əvvəl respublikaların birinci şəxslərinin Yazıçılar İttifaqının qurultaylarında iştirakı yəqin ki, məcburi-könüllü xarakter daşıyırdı. Əvvəla, çox güman ki, Moskva belə istəyirdi. İkinci tərəfdən rəhbərlər ideoloji cəbhədə hansı proseslərin getdiyindən, qələm adamlarının “nə ilə nəfəs aldıqlarından” xəbər tutmalı idilər. Müstəqillik dövründə isə artıq ədəbiyyat “partiya işinin təkərciyi və vintciyi olmaq” (Lenin) funksiyasını itirdiyindən yazıçıların nədən danışdıqları, hansı məsələləri müzakirə etdikləri rəsmi dairələrdə xüsusi maraq doğurmurdu.

Amma Heydər Əliyev heç bir rəsmi vəzifə tutmayanda da ədəbiyyatın qayğılarından və yazıçı mühitindən kənarda qalmamışdı. Yəqin ki, çoxlarının yadındadır – ölkənin keçmiş birinci şəxsi Azərbaycan yazıçılarının 1991-ci il 18-19 mart tarixlərində keçirilən IX qurultayının iştirakçıları arasında idi. Özü də bəzi qədirşünas qələm sahiblərinin təkidli xahişlərinə baxmayaraq məclisin işini həmişə olduğu kimi, rəyasət heyətindən deyil, zaldan izləmişdi. Respublikanın (elə JBnin də!) çətin günlərində sıravi yazıçılarla birlikdə olmağı daha üstün tutmuşdu. Sonralar qocaman şairə Mirvarid Dilbazinin də etiraf etdiyi kimi, Heydər Əliyevi öz aralarında görmək ölkənin və ədəbiyyatın sabahına ümidlərini itirməkdə olan bir çox sənət adamları üçün sabaha, gələcəyə inam baxımından çox güclü stimula çevrilmişdi.

Azərbaycan yazıçılarının Prezident Heydər Əliyevin iştirakı ilə keçirilən və yuxarıda haqqında söz açdığım X qurultayını yaxşı xatırlayıram. Dövlət başçısı işinin çoxluğuna baxmayaraq həmin qurultaya üç gün – üst-üstə 15 saata yaxın vaxt sərf etmişdi! Oktyabrın 28-də yaşlı (yəqin ki, tanınmış desəm, daha yerinə düşərdi. Çünki həmin dövrdə 45 yaşını tamam edən bəndeyi-həqir də həmin qocamanların sırasında idi), ertəsi gün gənc nəslin nümayəndələrini qəbul etdi. Bu görüşlər zamanı nə qədər maraqlı söhbətlər, mükalimələr oldu! Necə ibrətamiz fikirlər səsləndi! Yəqin ki, yaşından, ədəbi şöhrətindən asılı olmayaraq bu günlərdə hər bir söz adamı, xüsusən də gənclər həmin görüşdə “öz” Heydər Əliyevini kəşf etmək imkanı qazandı. Prezident vəzifə və şəxsiyyətinin siqləti, ağırlığı ilə heç kəsi sıxıb əzmirdi. Əksinə, çıxış edənləri monoloqdan dialoqa, açıq və bərabərhüquqlu fikir mübadiləsinə səsləyirdi.

Oktyabrın 30-da isə əvvəldən sona– seçkili orqanlara səsvermə başlayana qədər qurultayın işində iştirak etdi. Müstəqilliyin ədəbi-mədəni quruculuğu ilə bağlı proqram xarakterli nitq söylədi. Həm də Heydər Əliyev qurultaya tək gəlməmişdi. Yeni dövrün ədəbiyyatı, mədəniyyəti, ideologiyası üçün cavabdeh olanların hamısını özü ilə gətirmişdi. Qurultayın məruzəçilərindən biri olduğum üçün rəyasət heyətində oturmuşdum. Odur ki, zalı diqqətlə müşahidə edə bilirdim. Ədəbiyyat və ideologiya məmurlarının bəziləri yerlərində mürgülədikləri (xüsusən də nahar fasiləsindən sonra!) halda, Heydər Əliyev məruzə və çıxışlara böyük maraqla qulaq asırdı. Hiss olunurdu ki, ədəbiyyat adamları (son illərdə keyfiyyət baxımından sıraları xeyli zəifləsə də!, korifeylər aramızdan getsə də!) ilə birlikdə olmaqdan zövq alır.

Bu, Azərbaycan yazıçılarının böyük və qədirbilən dostları – Prezident Heydər Əliyevin iştirakı ilə keçirilən sonuncu yaradıcılıq hesabatı idi. Əslinə baxanda ondan sonra qurultayların da bir dadı-duzu qalmadı. Heydər Əliyevin yoxluğu ölkə həyatının bütün digər sahələri ilə birlikdə yaradıcı mühitdə də (bəlkə də hər yerdən daha çox) hiss olunmaqda idi. Çünki Azərbaycana rəhbərlik etdiyi dövrdə bir əsr ərzində bu mühitin ilham və istiqamətvericisi, ruhlandırıcı və qoruyucusu olmuşdu.

Mənə elə gəlir ki, o, sənət adamlarının mühitində ruhən dincəlirdi, daxilən zövq alır, hətta şənlənirdi. Bürokratik mühitin bozluğundan, tutuquşu kimi eyni sözləri, kəlmələri təkrarlayan bəzi məmurların darıxdırıcı yeknəsəkliyindən, dövlət idarəçiliyinin dəyişməz protokol qaydalarından bir neçə saatlığa da olsa uzaqlaşırdı. Təkcə elə Qabilin “Heydər müəllim, uşaqlar İnturistin Mramornı zalında yaxşı süfrə açıblar, qutab-filan da var, bizimlə adama yüz qram vurardınız” sözləri, yaxud Sirus Təbrizlinin öcəşkənliyə varacaq dərəcədə söz güləşdirməsi (amma qarşısının inzibati-əmirlik yolu ilə alınmaması!) dövlət başçısını vəzifə borcuna görə uzaq düşdüyü, darıxdığı adi, gündəlik həyata qaytarırdı. O biri tərəfdən ədəbiyyat əhli də başa düşürdü ki, Prezident məmurlarla müqayisədə onlara bəlli bir azadlıq, sərbəst davranmaq, gizli həqiqətləri demək üçün kart-blanş verib. Həm də bu azadlıqdan şəxsi problemlərin həlli üçün deyil, xalqın və dövlətin xeyrinə, ədəbiyyatın və bədii sözün faydasına istifadə olunanda daha məmnun qalır, yaradıcı insanlara daha böyük ehtiram göstərir.

Məmur və ədəbiyyat adamı...Heydər Əliyevin rəhbərliyi altında dörd ilə yaxın hər iki ipostasda görünmək imkanım olub... Bir epizodu xatırladım:

1990-cı ildə müdafiə etdiyim doktorluq dissertasiyası 2002-ci ildə – XİN-də çalışdığım vaxt “Rusiya şərqşünaslığında Azərbaycan məktəbi” adı altında rus dilində çap olunmuşdu. Görünür, ani şöhrətpərəstlik hissi sağlam düşüncəyə üstün gəldi və kitabın bir nüsxəsini Prezidentə (daha doğrusu, Prezident kitabxanasına) hədiyyə etməyə qərar verdim. Amma hədiyyəmin xoş qarşılandığını deyə bilmərəm. Əksinə, özüm də gözləmədiyim halda dövlət başçısından narazılıq ifadəsi olan sözlər eşitdim:

– Sənə etimad göstərib mühüm vəzifəyə irəli çəkmişik. Bütün vaxtını, enerjini üzərinə düşən işi layiqincə yerinə yetirməyə sərf eləməlisən. Əsər, roman, şeir yazmaq kimi məsələlərlə pensiyaya çıxandan sonra məşğul olarsan...

Kitabın on-on beş il əvvəl yazıldığını, indi hətta istəsəm də belə işlərə qətiyyən vaxt tapılmadığını desəm də hiss etdim ki, inandırıcı alınmadı. Amma Prezident sərt, tələbkar olduğu qədər də həssaslıq və mülayimlik nümayiş etdirməyi də bacarırdı. İradları qarşısında pərt vəziyyətə düşdüyümü görüb kitabı masanın üstündən götürdü, mündəricata, şəkillərə baxdı, annotasiyaya göz gəzdirdi. Sonra mənə müraciətlə:

– Bu Kazımbəylərdən birinin Rusiyanın çox mühüm keşişi olmağından xəbərin var? – deyə soruşdu.

Mən professor Mirzə Kazımbəyin Kazan Ruhani Akademiyasında çalışması, xristian dini kitablarının türk-tatar dillərinə tərcüməsi ilə bağlı Müqəddəs Sinoddakı fəaliyyəti haqda danışmağa başladım. Prezident sözümü yarıda kəsib:

– Yox, mən son vaxtları, 1970-ci illəri nəzərdə tuturam, – dedi. – Yadımdadır ki, o vaxtlar Moskva Patriarxatlığında Kazımbəy familiyalı bir nəfər vardı. Deyəsən, rus kilsəsinin beynəlxalq əlaqələr məsələsinə baxırdı. Bir-iki dəfə Nazirlər Sovetində görmüşdüm. Həmişə fikirləşirdim ki, Kazımbəy hara, keşişlik hara? Şəxsən tanış deyildik. Ona görə də özündən soruşa bilməmişdim. İmkan olanda, maraqlanarsan. Gələcəkdə, yəni vəzifədən gedəndən, pensiyaya çıxandan sonra! Yoxsa “Prezident mənə tapşırıq verib” – bəhanəsi ilə iş-gücünü atıb yenə kitab yazmağa qurşanma!

Heydər Əliyev bu sözləri əsəbi yox, gülümsər ifadə ilə dedi. Başa düşdüm ki, hətta “qadağanı” pozsam da, buna xüsusi irad tutulmayacaq.

Amma sonralar maraqlandım və Mirzə Kazımbəyin oğlu xətti ilə nəticəsi, görkəmli din xadimi, 1930-cu illərdə Rusiya siyasi mühacirətinin, Qərbdə böyük populyarlıq qazanmış “Molodaya Rossiya” hərəkatının liderlərindən biri olan, Vətənə qayıdandan sonra ömrünün axırına qədər Moskva Patriarxatlığının beynəlxalq əlaqələr şöbəsinə rəhbərlik etmiş ilahiyyatşünas Lev Aleksandroviç Kazımbəy (1902-1977) haqqında “Kazımbəylər nəsli: 200 il Rusiya ilə birlikdə” adlı məqalə yazdım. Araşdırma diqqəti çəkdi. Rus və ingilis dillərinə də tərcümə edildi. Mərhum Prezidentlə aramızdakı qısa dialoqu da epiqraf kimi əvvələ verdim.

Bu epizodu niyə xatırladım? Özümü çox bacarıqlı məmur saymıram. Və hərdən fikirləşirəm ki, bəlkə də Heydər Əliyevin rəhbərliyi altında işlədiyim dövrdə yol verdiyim səhvləri, düşünülməmiş addımları da, necə deyərlər, “şairliyimə” bağışlayıb. Çünki o, sözün hikmətinə inanırdı, böyüklük və məşhurluq səviyyəsindən asılı olmayaraq söz adamlarına həmişə diqqət və qayğı ilə yanaşırdı.

Azərbaycan ədəbiyyatı tarixində tək rəhbərlik fəaliyyəti deyil, həm də bədii yaradıcılığı ilə tanınan dövlət başçıları az olmamışdı – Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai, Nəriman Nərimanov... Heydər Əliyev isə öz üzərinə daha böyük missiya – ədəbiyyatın yaxın dostu, tələbkar oxucusu, çətin məqamlarda isə qoruyucusu, mühafizi olmaq vəzifəsini götürmüşdü. Və onilliklər boyu bu missiyanı şərəflə yerinə yetirmişdi...